**"Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın icrası məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Şirvan Gənclər Evi Sosial Xidmət Müəssisəsində seminar keçirildi. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, Komitənin əməkdaşları Vəfa Ələkbərova və Tural Hüseynzadə seminarda iştirak etdilər. Şirvan, Salyan, Hacıqabul və Kürdəmir şəhər və rayonlarının Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupunun üzvlərinin cəlb olunduğu seminarda qrupların 2021-ci və 2022-ci illər üzrə fəaliyyət istiqamətləri müzakirə olundu.**



# Gender bərabərliyi taleyüklü məsələdir

Sədaqət Qəhrəmanova seminar iştirakçılarını salamladıqdan sonra gender siyasəti və məişət zorakılığına qarşı mübarizə istiqamətində dövlət səviyyəsində görülmüş işlərdən danışdı. Qeyd etdi ki, yerli icra hakimiyyəti orqanlarında monitorinq qruplarının yaradılması qadınların cəmiyyətin bütün sahələrində fəallığının artırılmasına, gender bərabərliyinin təmin olunmasına, məişət zorakılığının qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirlərin gücləndirilməsinə, zorakılıqdan zərərçəkmiş şəxslərin aşkarlanması və hüquqlarının müdafiəsi sahəsində görülən işlərin səmərəliliyinin artırılmasına kömək edir.

Şirvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Aynur Fərzəliyeva, Hacıqabul Rayon İcra Hakimiyyəti başçısının müavini Xuraman Məmmədova, Kürdəmir Rayon İcra Hakimiyyəti başçısının müavini Vəsilə Əsgərli, Salyan Rayon İcra Hakimiyyətinin şöbə müdirinin müavini Aqşin Babayev çıxış edərək, rəhbərlik etdikləri Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qruplarının fəaliyyəti, məişət zorakılığının, erkən nikahın qarşısının alınması, nikahlar və boşanmalar, erkən yaşda hamiləliklər, doğuşlar, qadınlara qarşı cinayətlər barəsində hesabat xarakterli məlumatlar verdilər. Seminar diskussiya şəraitində müzakirələrlə davam etdirildi.

**Tofiq HÜSEYN,**
**"Respublika".**

Respublika .- 2022.- 13 aprel.- S.9.